# Qurban bayramı qeyd olundu

Qurban bayramı müsəlmanların dini bayramları içərisində ən müqqəs rituallardan biridir. Qurban kəsilməsi tarixi hələ islam dini meydana gəlməmişdən xeyli əvvəllərə aiddir. İslam aləmi bu dini ayinin tarixini peyğəmbər İbrahimin oğlu İsmayılı Allah yolunda qurban kəsməyi vəd etməsi və bu vədinə sadiq çıxması ilə əlaqələndirirlər. Allah İbrahim peyğəmbərin böyük yaradana sadiqliyini görərək ona Həzrət Cəbrayıl vasitəsilə oğlu İsmayılın əvəzinə kəsmək üçün qoç göndərir.

Ərəbistan yarımadasında İslam dini bərqərar olduqdan sonra bu hadisənin ildönümləri müsəlmanlar arasında bayram kimi qeyd olunmağa başlandı. Müsəlmanların müqəddəs kitabı Quranda və sünnələrdə hər bir imkanlı müsəlmana Qurban bayramı günlərində qurban kəsmək və müəyyən hissəsini qohum-qonşuya, imkansızlara paylamaq vacib sayıldı. Quran və sünnələrdə hansı heyvanların qurban kəsilə biləcəyi göstərilmişdir.

Sonradan qurban kəsmək adəti ərəbistan yarımadasından başlayaraq islamı qəbul etmiş bütün insanlar arasında geniş yayıldı.

Vətənimiz Azərbaycanda da Qurban bayramının müsəlman qaydalarında keçirilməsi tarixi 1300 ilə yaxındır. Yalnız Azərbaycanda sovet hakimiyyəti illərində (1920-1991) bu bayramın keçirilməsinə müəyyən məhdudiyyətlər qoyulsa da xalqımız yarı gizli şəkildə bu müqəddəs bayramı qeyd etmişdir. Quranda qeyd olunduğu kimi bu bayram yardımlaşma, dostluq, insanların bir-birinə daha çox yaxınlaşması bayramıdır.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra dinimiz qarşısında qoyulan bütün məhdudiyyətlər, o cümlədən Qurban bayramının keçirilməsi qarşısındakı qadağalar aradan qaldırıldı. İndi hər il Azərbaycanda Qurban bayramı çox yüksək səviyyədə keçirilir. Bayram günləri qeyri-iş günləri sayılır.

Azərbaycanın hər yerində olduğu kimi Qəbələdə də bu ilki Qurban bayramı təntənə ilə qeyd olundu. Rayonun baş bayram tədbiri Qəbələ şəhərinin mərkəzində yerləşən üç əsr görmüş cümə məscidində keçirildi.

Saat 8-də minlərlə dindar Qurban bayramı namazını qılmaq üçün buraya toplaşmışdı. Rayonun xeyyriəçi adamları, idarə və müəssisə rəhbərləri buraya qurban kəsmək və imkansız adamlara paylamaq üçün çoxlu sayda qurbanlıq heyvan gətirmişdilər.

Qurban bayramı namazı vətənimizdə sülh, əmin-amanlıq, insanlara dostluq, daim yardımlaşma ifadə edən dualar altında bitdi. Sonra məscidə toplaşanlar byram münasibətilə bir-birilərini, təbrik etdilər. Daha sonra qurbanlıq heyvanlar kəsildi. Qurban payları orada olan və oraya gəlmək imkanı olmayan imkansızlara, əlillərə, şəhid ailələrinə, tənha yaşyan qoca, xəstə insanlara paylandı.

Bayram günləri xoş əhval ruhiyyə ilə keçdi.

**«Qəbələ».**

# İtkin düşmüş şəxslərin ailə üzvləri ilə görüş keçirilmişdir

6 sentyabr 2016-cı il tarixdə Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti Azərbaycan təşkilatının dəstəyi ilə Qəbələ şəhərindəki «Çinar» restoranında Qəbələ, İsmayıllı, Oğuz rayonlarından Qarabağ müharibəsi zamanı əsir və itkin düşmüş şəxslərin ailə üzvləri ilə görüş keçirilmişdir. Tədbir Qırmızı Xaç Cəmiyyətinin «İtkin şəxslərin ailələrinə psixoloji-sosial dəstək» layihəsi çərçivəsində təşkil olunmuşdu. Görüşdə Qəbələ, Oğuz, İsmayıllı rayon icra hakimiyyətləri başçıları aparatlarının nümayəndələri, Qırmızı Xaç Cəmiyyəti Mərkəzi və bölgə ofislərinin işçiləri iştirak etmişlər.



Tədbir giriş sözü ilə layihənin regional kordinatoru Şəmsiyyə Əzimova açmışdır. Qəbələ RİH-in məsul işçisi Azər Şirinov, Oğuz RİH-in məsul işçisi Firdovsi Şirinov, İsmayıllı RİH-nin məsul işçisi Habil Ağayev, Qızıl Aypara Cəmiyyəti Qəbələ Rayon Təşkilatının sədri Sədaqət Bayramova, Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru Rəna Mahmudova, rayon müalicə-diaqnostika mərkəzinin həkimi Kamal Məmmədov, şəhid atası Fərman Əsgərov və başqaları danışaraq dövlətimizin başçısı cənab İlham Əliyevin sərəncam və tapşırıqlarına uyğun olaraq şəhid və itkin ailələrinə göstərilən qayğıdan danışmış, Qırmızı Xaç Cəmiyyəti Azərbaycan Təşkilatının bu layihəsindən razılıqlarını bildirmişlər. Sonra məktəblilər şəhidlərə həsr olunmuş şeirlər söylədilər.

Tədbir məktəblilərin birlikdə ifa etdikləri Azərbaycan Respublikasının Dövlət Himni ilə başa çatmışdır.

**Qüdrət SƏMƏDOV.**
**Foto S. Umuyevindir.**

# "Qəbələ" klubunun "Dinamo" ilə oyunlarının vaxtı dəqiqləşib

UEFA Gənclər Liqasında Azərbaycanı təmsil edəcək "Qəbələ"nin 19 yaşadək futbolçulardan ibarət komandasının birinci mərhələdə keçirəcəyi oyunların vaxtı dəqiqləşib.

AZƏRTAC xəbər verir ki, Rusiyanın "Dinamo" (Moskva) klubu ilə ilk qarşılaşma sentyabrın 21-də keçiriləcək. Öncədən sentyabrın 28-nə planlaşdırılan matçın vaxtı dəyişdirilib və 1 həftə əvvəl baş tutacaq. Görüş Qəbələ şəhər stadionunda keçiriləcək. Matç saat 19:00-da başlayacaq.

Komandalar arasında cavab oyunu oktyabrın 19-da baş tutacaq. Qarşılaşma Ximkidəki "Rodina" stadionunda keçiriləcək. Oyun Bakı vaxtı ilə saat 19:00-da start götürəcək.

# *Qəbələdə atıcılıq üzrə dünya kuboku yarışları keçiriləcək*

Qəbələ rayonu bu günlərdə daha bir beynəlxalq idman tədbirinə ev sahibliyi edəcək. Sentyabrın 16-dan 23-dək "Qəbələ" Atıcılıq Klubunun və Azərbaycan Atıcılıq Federasiyasının təşkilatçılığı, Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə olimpiya atıcılıq növləri üzrə gənclər arasında dünya kuboku yarışları keçiriləcək.

Qəbələ rayonunun Bum qəsəbəsindəki stend və ox atıcılığı kompleksində təşkil ediləcək yarışlarda 27 ölkədən 300-dək idmançının iştirakı gözlənilir. Atıcılığın bir neçə növü üzrə dünya kuboku uğrunda keçiriləcək yarışlarda 21 yaşadək olan gənc qız və oğlanlar mübarizə aparacaqlar. İdmançıların və rəsmi qonaqların qarşılanması, yerləşdirilməsi üçün lazımi şərait yaradılıb. Yarışın rəsmi açılış mərasimi sentyabrın 16-da olacaq.

Qeyd edək ki, Beynəlxalq İdman Atıcılıq Federasiyasının təqvim planına uyğun olaraq keçiriləcək yarış Avropa və dünya çempionatından sonra ən mühüm yarışlar sırasındadır.

**AZƏRTAC.**

**Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsi mədəni-maarif müəssisələri binalarının cari və əsaslı təmir olunması üçün katirovka sorğusu elan edir.**

## *İşaxtaran vətəndaşların nəzərinə!*

Qəbələ Rayon Məşğulluq Mərkəzi 21 sentyabr 2016-cı il tarixdə Əmək Yarmarkası keçirir.

İşaxtaran vətəndaşlar, Sizi Əmək Yarmarkasına dəvət edirik.

Qəbələ Rayon Mədəniyyət Mərkəzində keçiriləcək yarmarka saat $11^{00}$-da işə başlayacaqdır.

**Ünvan:** Qəbələ şəhəri, 28 may küçəsi 40.

**Qəbələ rayon Məşğulluq Mərkəzi.**

## ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən Qəbələ şəhər sakini **Musayev Məmmədzabil Məmmədəli oğluna** verilmiş JN:731 F nömrəli (kodu 40601004) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 aprel 2002-ci il tarixdə 03 saylı qərarla Zarağan kənd sakini **Həşimova Məhbubə Hüseynqulu qızının və ailə üzvlərinin** adına verilmiş JN:0424 nömrəli (kodu 40608018) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixdə 11 nömrəli qərarla Bum qəsəbə (kənd) sakinləri **Əfəndiyev Arif Əhməd oğlunun və ailə üzvü Əfəndiyeva Yasəmən Məcid qızının** adına verilmiş JN: 1080 nömrəli (kodu 40600038) **Torpağın mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixdə 11 nömrəli qərarla Bum qəsəbə (kənd) sakinləri **Əfəndiyev Arif Əhməd oğlunun və Əfəndiyeva Yasəmən Məcid qızının** adına verilmiş JN: 350 A nömrəli (kodu 40600038) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.


*Redaktor*
*V. A. Yaqubov.*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Məsul növbətçi*
*N. R. Atakişiyev.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 1800.
Oxucu məktubları geri qaytarılmır.